# İnsanların sağlamlığı keşiyində



**Ölkəmizdə son illər digər sahələrlə yanaşı, genişmiqyaslı səhiyyə islahatları həyata keçirilir, tibb ocaqlarında kadr potensialı güclənir, Prezident İlham Əliyevin qayğı və diqqəti sayəsində insanların sağlamlığının qorunmasına maksimum səy göstərilir.**

Bu gün tibb işçilərinin peşə bayramıdır. Builki bayram Bakıda keçirilən birinci Avropa İdman Oyunları ilə bir dövrə təsadüf edir. Ağxalatlı ömür keşikçiləri indi ikiqat sevinc içərisindədir. Onlar Avropa Oyunlarının keçirildiyi bir vaxtda öz peşə bayramlarını yüksək əhval-ruhiyyə ilə qarşılayırlar.

18 nömrəli Şəhər Poliklinikası paytaxtın "Gənclik" metrosunun yaxınlığında, füsunkar bir guşədə yerləşir. Tibb İşçiləri Günündə kollektivimizin fəaliyyəti barədə fərəhlə söhbət açmaq olar. Hər gün müxtəlif ünvanlardan poliklinikaya onlarca insan gəlir. Xəstələrin müayinəsi dəqiqliklə aparılır, çalışırıq ki, onların sağlamlığı bərpa olunsun, xidmətimiz hər bir ailəni razı salsın.

Poliklinikamız 25 mindən çox əhaliyə xidmət edir. Səhiyyə işçiləri mütəmadi olaraq əhali arasında geniş maarifləndirmə işləri aparır, xüsusilə indiki qızmar günlərdə qida rejiminə ciddi riayət olunması ilə bağlı insanlara lazımi tövsiyə və göstərişlər verirlər.

Əlaqədar təşkilatların qayğı və diqqəti sayəsində son dövrdə poliklinikada əsaslı təmir işləri aparılmış, demək olar ki, bütün müayinə kabinetləri müasir avadanlıqlarla təchiz olunmuşdur.

Vurğulamaq lazımdır ki, poliklinikanın ərazisində məskunlaşan qaçqın və məcburi köçkünlərə, müharibə və əmək veteranlarına göstərilən tibb xidməti müasir tələblər səviyyəsindədir. Şübhəsiz ki, səhiyyə işçilərinin göstərdikləri nümunəvi xidmət onları razı salır.

Poliklinikada şəkər xəstəliyinə düçar olmuş xəstələrə hər sahəli qayğı göstərilir. Mütəmadi olaraq onların müayinəsi keçirilir, şəkər xəstələri hər ay pulsuz dərmanlarla təmin olunurlar.

İnsanların müayinə və müalicəsinin düzgün aparılması üçün poliklinikada çalışan tibb işçiləri öz peşə hazırlıqlarını durmadan artırır, iş fəaliyyətlərində mütərəqqi metodların tətbiqinə geniş yer verirlər.

Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin göstərişinə uyğun olaraq cari ilin fevralından may ayınadək poliklinikada tibbi müayinə aparılmış, bir çox xəstələr ev şəraitində müayinədən keçmiş, bir sözlə, insanların sağlamlığının qorunub saxlanması diqqət mərkəzində olmuşdur.

Tibb işçilərinin peşə bayramı günündə kollektivimizin üzvlərindən Məlahət Məcidova, Tünzalə Əliyeva, Flora Kərimzadə, Aidə Hacılı, Xanım Mehdiyeva, Elmira İbrahimova, Zemfira Qənbərova, Təranə Məmmədova və başqalarının adlarını iftixarla çəkmək olar.

Ekoloji tarazlığı qorumaq məqsədilə poliklinikanın ərazisində abadlıq və quruculuq işləri uğurla həyata keçirilir. Məhz buna görə də hər tərəf füsunkarlığı ilə diqqəti cəlb edir.

17 iyun – Tibb İşçiləri Günü münasibətilə insanların sağlamlığı keşiyində ayıq-sayıq dayanan həkim və tibb bacılarını təbrik edirəm. İnanırıq ki, onlar şəfalı əlləri ilə həmişə insanları xəstəliklərdən xilas edəcək, onların ömür yoluna nur çiləyəcəklər.

**Mənsur HÜMBƏTOV,**
**Nərimanov rayonu,**
**18 saylı Poliklinikanın**
**baş həkiminin müavini.**